შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი



# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**Dinləyişin I hissəsi**

**Dinləyişin hissəsi on tapşırığı birləşdirir.**

**1-6-cı tapşırıqlar** (Hər düzgün cavaba 1 xal verilir).

**<u>Təlimat:</u> musiqi fraqmentlərinin dinləyin və müvafiq suallara cavab verin. Hər bir tapşırığa bir musiqi fraqmenti və iki sual daxildir. Hər sualı ehtimal olunan dörd cavab müşayiət edir. Bir düzgün cavabı seçin və cavablar vərəqində X-lə işarə edin.**

**Hər bir musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləyiş arasında fasilə 20 saniyədir.**

**Hər bir tapşırığa daxil olan musiqi fraqmenti dinlənilənədək tapşırığın suallarını oxumağınız üçün sizə 10 saniyə vaxt verilir.**

(Tapşırıqlar sonrakı səhifədə verilib)

**Tapşırıq 1.**

**Birinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (1.1 və 1.2):**

**1.1 Hansı guşənin mahnısıdır?**

ა) Quriya;

ბ) Sameqrelo;

გ) Kaxeti;

დ) Acara.

**1.2 Hansı janrın mahnısıdır?**

ა) Zəhmət janrının;

ბ) Təqvim janrının;

გ) Yürüş janrının;

დ) Süfrə janrının.

**Tapşırıq 2.**

**İkinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (2.1 və 2.2):**

**2.1 Musiqinin müəllifi kimdir?**

ა) Cansux Kaxidze;

ბ) İnola Qurquliya;

გ) Qoqi Sabadze;

დ) David Toradze.

**2.2 Mahnı hansı kinofilmdəndir?**

ა) “Özgə uşaqları”;

ბ) “Nino”;

გ) “Birinci gün, sonuncu gün”;

დ) “Dağda görüş”.

**Tapşırıq 3.**

**Üçüncü musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (3.1 və 3.2):**

**3.1 Hansı dövrün əsəridir?**

ა) Renessans;

ბ) XIX əsrin;

გ) Barokko;

დ) XX əsrin.

**3.2 Hansı janrın fraqmentidir?**

ა) Opera janrının;

ბ) Kantata janrının;

გ) Messa janrının;

დ) Oratoriya janrının.

**Tapşırıq 4.**

**Dördüncü musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (4.1 və 4.2):**

**4.1 Hansı personajın partiyası səslənir?**

ა) Kerubino;

ბ) Don Covanni;

გ) Papageno;

დ) Fiqaro.

**4.2 Hansı janrın solo opera nömrəsidir**

ა) Ariozo janrının;

ბ) Romans janrının;

გ) Kavatina janrının;

დ) Ariya janrının.

**Tapşırıq 5.**

**Beşinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (5.1 və 5.2):**

**5.1 Musiqinin müəllifi kimdir?**

ა) Feliks Mendelson;

ბ) Robert Şuman;

გ) İohannes Brams ;

დ) Karl Veber.

**5.2 Əsərlərin əsasını hansı rəqs qoymuşdur?**

ა) Hora rəqsi;

ბ) Oberek rəqsi;

გ) Çardaşi rəqsi;

დ) Polka rəqsi.

**Tapşırıq 6.**

**Altıncı musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (6.1 və 6.2):**

**6.1 Hansı janrın əsərinin fraqmentidir?**

ა) Oratoriyanın;

ბ) Operettanın;

გ) Baletin;

დ) Müziklin.

**6.2 Musiqinin müəllifi kimdir?**

ა) Leonard Bernstayn;

ბ) Corc Qerşvin;

გ) Layonel Bart;

დ) Endrü Lloyd Ueber.

**Tapşırıq 7.** (1 xal)

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz qammanın müvafiq variantını seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin. Qammanı iki dəfə dinləyin. Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**



**Tapşırıq 8.** (1 xal)

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin. Ritmik fiqurasiyanı iki dəfə dinləyin. Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**

ა)


ბ)


გ)


დ)


**Tapşırıq 9.** (5 xal)

***Musiqi imlası***

**Təlimat. Melodiyanı dinləyin və  not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanı audioyazıda dörd dəfə dinləyin; hər sonrakı dinləyiş arasında 2 dəqiqə interval vardı. İmla tonallıqla verilmişdir: mi minor (e moll).**

***Yazılmış melodiyanı cavablar vərəqəsindəki verilmiş  not sisteminə keçirin.***

**Tapşırıq 10.** (13 xal)

***Musiqi əsərinin təhlili***

**Təlimat. Tapşırıqda musiqi əsərinin verilən suallar üzrə audio və not yazıları əsasında təhlili nəzərdə tutulur.**

**Musiqi əsərinin yazısını üç dəfə dinləyin; yazını dinləməzdən əvvəl tapşırığın suallarını bir daha nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.**

(Suallar sonrakı səhifədə verilib).

1. Verilmiş fraqment hansı vokal janrına məxsusdur? Fikrinizi əsaslandırın (2 xal).

2. Müəyyən edin: (3 xal)

ა) 28 - 36 taktlarda yerləşdirilmiş parçanın musiqi forması;

ბ) Göstərilən parçanın başlanğıc tonallığı (28-ci taktdan);

გ) 34-36 taktlarda verilmiş kadans dövriyyəsinə daxil olan akkordların harmonik funksiyaları.

3. Musiqi fraqmentinin bədii-emosional cəhətini necə səciyyələndirirsiniz? İnkişaf dinamikasını təhlil edin və musiqi təsvirinin hansı üsullarının – nə formalı melodiya, ritm, temp, tembr, harmoniya, lad və tonallıq, faktura və s. musiqi fraqmentinin bədii məzmununu yaratmaq üçün xüsusilə mühüm olduğunu qısa təsvir edin (3 xal).

4. Dinlənilmiş fraqmentin musiqi səciyyəsi əsasında əsərin yaradılması dövrünü və bəstəkarın şəxsiyyətini müəyyən edin (2 xal).

5. Bəstəkarın şəxsiyyətinin müəyyən edildiyi təqdirdə dinlənilmiş əsərin müəllifinin yaradıcılığını səciyyələndirin; novatorluq nailiyyətlərini göstərin, dovriyyəni müəyyən edin və janr və bədii dəyişikliklərə uğrama üzrə bəstəkarın yaradıcılığının məzmununu göstərin. Dinlənilmiş əsərin musiqili-bədii kontekstinin özünəməxsusluğunu müzakirə edin (3 xal).


Allegro agitato ( ♩ = 138 )
Ri - tor - no vin - ci - tor!..
E dal mio lab - bro u - sci l'ein - pia pa -
ff
pp
ro - la!
vin - ci - tor del pa - dre mi - o... di lui che im -
f
pp


9
pu - gna l'ar - mi per me... per ri - do - nar - mi u - na pa - tria, u - na reg - gia e il no - me il -
12
lu - stre che qui ce - lar m'e for - za!
Vin - ci tor de' miei fra -
f


16
tel - li... ond' io lo veg - ga, tin - to del san - gue a -
pp
20
ma - to, tri - on-far nel plau - - - - so dell' E - gi - zie co -
f


24
or - ti!.. E die - tro il car - ro, un Re... mio pa - dre... di ca - te - ne av - vin - to!..
ff
28
Piu mosso ( 𝅗𝅥 = 100 )
pp
L'in - sa - na pa - ro - la, o nu - mi, sper - de - te! Al
pp


33
se - no d'un pa - dre la fi - glia ren - de - te; strug - ge - - -
f
38
te, strug - ge - - - te, strug - ge - te le squa - dre dei


43
ff
no - stri op - pres - sor!
Ah!
sven - tu - ra - ta! che
ff
Andante poco piu lento della I volta
48
dis - si?
e l'a - mor
mi - o?
Dun - que scor - dar pos-
p cantabile
pp


52
s'i - o que-sto fer - vi - do a - mo - re che, op-pres - sa e schia - va, co - me rag - gio di
55
sol qui mi be - a - va? Im - pre - che - ro la mor - te a Ra - da -
pp
dolce


58
mes... a lui ch'a - mo pur tan - to! Ah, non fu in ter - ra
f
61
mai da piu cru - de - - - li an - go - scie un co - re af - fran - to!


rall.
64
64
3
3
morendo

## II Hissə

**11-28-cı tapşırıqlar**

**<u>Təlimat:</u>** (Hər düzgün cavaba 1 xal verilir) **-** Hər tapşırığa dörd ehtimallı cavab verilir. Onlardan yalnız biri düzdür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında –X işarəsini yazın. Elektron bukleti başqa heç bir qeydi, horizontal və ya üfüqi xətləri, müxtəlif işarələri qeydə almır. Əgər, cavablar vərəqində qeyd etdiyiniz cavabı yenidən düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Rənglədiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür.

**Tapşırıq 11.**

**Hansı bəstəkarı üçün simfoniya janrı bədii ideyanı əks etdirən vasitə *<u>olmamışdır?</u>***

ა) Şuman üçün;

ბ) Şubert üçün;

გ) Şopen üçün;

დ) Mendelson üçün.

**Tapşırıq 12.**

**Yevangelist hansı vokal-instrumental janrın solistidir**

ა) Oratoriyanın;

ბ) Messanın;

გ) Passionun;

დ) Kantatanın.

**Tapşırıq 13.**

**Tokata hansı təyinat uyğun gəlir?**

ა) Solist vokalistlər, xor və orkestr üçün əsərlər;

ბ) Sürətli templi, ritmik baxımdan mürəkkəb, virtual pyes;

გ) Solistin orkestrlə bir-birini əvəz etdiyi əsər;

დ) Proqram tipli pyes.

**Tapşırıq 14.**

**Böyük Britaniyada hansı opera teatrı vardır?**

ა) „La Skala“;

ბ) “Metropoliten opera”;

გ) “Kral operası”;

დ) “Qrand opera”.

**Tapşırıq 15.**

**İ. Xeypets, İ. Menuhin, L. Batiaşvili məşhur:**

ა) Pianoçulardır;

ბ) Skripkaçılardır;

გ) Violençelistlərdir;

დ) Dirijorlardır.

**Tapşırıq 16.**

**Hansı gürcü bəstəkarının yaradıcılığında xorm musiqisi janrına xüsusi əhəmiyyət verilmişdir?**

ა) Zaxar Paliaşvili;

ბ) Dimitri Arakişvili;

გ) Niko Sulxanişvili;

დ) Meliton Balançivadze.

**Tapşırıq 17.**
**Betxovenin son dövrünün əsərlərində hansı üslublu nişanələr səslənmişdir?**

ა) Minimalizm;

ბ) Romantizm;

გ) Ekspressionizm;

დ) İmpressionizm.

**Tapşırıq 18.**

**“Kartvelo, xeli xmals ikar” hansı gürcü operasının xor səhnəsinin əsasıdır?**

ა) “Şota Rustaveli haqqında əfsanə”;

ბ) “Mindiya”;

გ) “Abesalom və Eteri”;

დ) “Keto və Kote”.

**Tapşırıq 19.**

**Eyni dövrdə hansı bəstəkarlar yaşayır və fəaliyyət göstərirdilər?**

ა) İohan Ştraus, Georq Fridrix Hendel;

ბ) Amadeus Motsart, İohannes Brams;

გ) Goakino Rossini, Cuzeppe Verdi;

დ) Antoniyo Vivaldi, Luici Palestrina.

**Tapşırıq 20.**

**XIX əsrdə gürcü folklor xorunun əsasını kim qoymuşdur?**

ა) Zaxar Paliaşvili;

ბ) Dimitri Arakişvili;

გ) İa Karqareteli;

დ) Lado Ağniaşvili.

**Tapşırıq 21.**

**“Tarantela” rəqsinin vətənidir:**

ა) Fransa;

ბ) Argentina;

გ) İspaniya;

დ) İtaliya.

**Tapşırıq 22.**

**V. A. Motsart hansı operanı *<u>yaratmamışdır?</u>***

ა) "Əfsanəvi fleyta";

ბ) "Sərbəst atıcı";

გ) "Fiqaronun toyu";

დ) "Don Covanni".

**Tapşırıq 23.**

**Hansı xalq mahnısı *deyildir?***

ა) “Tsintskaro”;

ბ) “Xasanbequra”;

გ) “Cice Tura”;

დ) “Şen xar venaxi”.

**Tapşırıq 24.**

**Not yazısında verilmiş ritmik xətlərdən hansı punktir ritmdir?**

ა) 

ბ) 

გ) 

დ) 

**Tapşırıq 25.**

**Listin fortepiano yaradıcılığının nümunəsi *deyildir?***

ა) Səyahət təəssüratları ilə yaradılmış pyeslər;

ბ) Prelüdiyelər silsiləsi;

გ) Proqramlı konsert etüdləri;

დ) Opera mövzuları üzrə parafrazlar.

**Tapşırıq 26.**

**Hansı opera uvertüra ilə başlanmır?**

ა) “Tanhoyzer”;

ბ) “Seviliya bərbəri”;

გ) “Bohema”;

დ) “Orfey və Evridika”.

**Tapşırıq 27.**

**Hansı musiqi termini “səsləndirən” deməkdir?**

ა) Dolce;

ბ) Agitato;

გ) Cantabile;

დ) Pesante.

**Tapşırıq 28.**

**Melodik ifadənin, ritmik fiqurun yaxud harmonik dövriyyənin dəfələrlə təkrarına musiqi əsərində deyilir:**

ა) Ostinato;

ბ) Sitat gətirmə;

გ) Kollaj;

დ) Aleatorika.

**29 - 32-cu tapşırıqlar** (Hər düzgün cavaba 1 xal verilir).

***Notdan qurma***

**Təlimat. Fa notundan verilmiş intervalı, üç və dördsəsli akkordları, kilonu qurun və cavablar vərəqində verilmiş not sisteminə yazın:**

29. Kiçik Septim;

30. Minor sekstakor;

31. Kiçik minorlu septakord;

32. Melodik major

**33 - 35-cü tapşırıqlar**

***Uyğunluğun müəyyən edilməsi***

**Təlimat. Tapşırıqda iki sütun verilmişdir. Onların həcmləri arasında uyğunluğu müəyyən edin. Soldakı sütunun hər göstəricisinə (1, 2, 3) sağdakı sütunun yalnız bir göstəricisi uyğundur (ა, ბ, გ, დ, ე). Cavablar vərəqində verilmiş cədvəldə hər bir uyğunluğu X işarəsi ilə göstərin.**

**Tapşırıq 33** (Hər düzgün cavaba 1 xal verilir).

**Bəstəkarlar və dövrləri yaxud üslubları uyğunlaşdırın:**

1. Klod Debyusi
2. Kristof Qluk
3. İohannes Brams

ა) Renessans

ბ) Neoklassisizm

გ) Romantizm

დ) Klassisizm

ე) İmpressionizm

**Tapşırıq 34** (Hər düzgün cavaba 1 xal verilir).

**Balet və bəstəkarlar arasında uyğunluğu müəyyən edin:**

1. “Petruşka”
2. “Don Kixot”
3. “Jizel”

ა) Rodion Şvedrin

ბ) Adolf Adan

გ) Klod Debyusi

დ) İqor Stravinski

ე) Lüdviq Minkus

**Tapşırıq 35** (Hər düzgün cavaba 1 xal verilir).

**Simfonik əsərlərlə janrlar arasında uyğunluğu müəyyən edin:**

1. “Eqmont”
2. “Prelüdiyelər”
3. “Şəhrizad”

ა) Simfonik süita

ბ) Proqramlı simfoniya

გ) Simfonik uvertüra

დ) Simfonik pyes

ე) Simfonik poema

**36 - 40-ci tapşırıqlar** (Hər düzgün cavaba 1 xal verilir).

***„Düzgündür-səhvdir"***

**<u>Təlimat</u>. Verilən müddəanın düzgün yaxud səhv olduğunu müəyyən edin; müddəanı düzgün sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin; belə hallarda sizdən izahat tələb edilməyəcəkdir; əgər müddəanı səhv sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin və ayrılmış yerdə düzgün izahı yazın - verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın yaxud verilmiş termini/sözü düzgün izah edin.**

**<u>Nəzərə alın ki</u>, verilmiş izahın müsbət forması mənfi forma ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmur.**

**Tapşırıq 36.**

Fridrix Şopen fortepiano balladasının banisidir.

**Tapşırıq 37.**

Süita janrı birhissəli virtuoz pyesin orkestri üçündür.

**Tapşırıq 38.**

Arnold Şonberq kompozisiyanın yeni metodunu – dodekafoniyanı işləyib hazırlamışdır.

**Tapşırıq 39.**

Zinqşpil opera janrıdır, onun dramaturgiyası arıyalar, ansamblar, xorlar və secco reçitativlərinin əvəzedilməsi üzərində qurulmuşdur.

**Tapşırıq 40.**

“Fiqaronun toyu” operasının librettosu alman dilində yazılmışdır.

**41 - 42-cı tapşırıqlar** (Hər tapşırığa 1 xal verilir).

***Xronologiyanın müəyyən edilməsi***

**<u>Təlimat.</u> Siyahını ən köhnədən ən yeniyə doğru xronoloji qaydada yerləşdirin. Cavablar cədvəlində xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-dək qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca əlifbanın müvafiq hərfləri ilə düzgün cavabları yazın (ა, ბ, გ, დ).**

**Tapşırıq 41.**

**Əsərlərin yazılması dövrü üzrə sadalananları xronoloji qaydada yerləşdirin:**

ა) “Stiks” solo alta və simfonik orkestri üçün;

ბ) "Mindyia" operası;

გ) Nəql edən, üç vokalist və instrumental septet üçün “Təmsil”;

დ) Simfonik poema “Zviadauri”.

**Tapşırıq 42.**

**Gürcü balerinalarının soyadlarının siyahısını onların yaşadıqları və fəaliyyət göstərdikləri dövr üzrə xronoloji qaydada yerləşdirin:**

ა) Nino Ananiaşvili;

ბ) Vera Tsiqnadze;

გ) Lali Kandelaki;

დ) Maka Maxaradze.